# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
# RƏYASƏT HEYƏTİ
# Q Ə R A R

25 dekabr 2002-ci il No27/2

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi haqqında**

"Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 07 avqust 2002-ci il 1003 №- li sərəncamının icrasını təmin etmək məqsədilə AR Nazirlər Kabineti "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi haqqında" 10 dekabr 2002-ci il tarixli 192 №-li qərar qəbul etmişdir. Qeyd olunan sənədlərin yerinə yetirilməsi ilə əlaqədar və AMEA RH 26 avqust 2002-ci il tarixli 18/1 №-li qərarını nəzərə alaraq, Naxçıvan Bölməsi fəaliyyətinin təşkili məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi işçilərinin ştat sayı 500 vahid müəyyən edilsin.
2. Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsinə daha əlverişli şəraitin yaradılması və elmi mütəxəssislərin işə cəlb edilməsini stimullaşdırmaq üçün AMEA-nın Naxçıvan Bölməsinin institutlarında vəzifə maaşlarına Milli Elmlər Akademiyasının institutlarındakı müvafiq maaşlara nisbətən 2 dəfə artım əmsalı tətbiq edilsin.
3. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi sədrinin aylıq vəzifə maaşı 1500.0 min manat, sədrin müavini – akademik katibin aylıq vəzifə maaşı 1200.0 min manat, bölmə aparatının digər işçilərinin aylıq vəzifə maaşları isə "Azərbaycan Respublikasının icra və məhkəmə hakimiyyəti orqanları işçilərinin

əmək haqlarının artırılması haqqında" AR Nazirlər Kabinetinin 29 yanvar 2001-ci il tarixli 28 №-li qərarının 1 №-li əlavəsinin 1-ci hissəsinə və 5 №-li əlavəsinə uyğun olaraq müəyyən edilsin.

4. AMEA-nın Nizamnaməsi üzrə Komissiyaya (ak. A.Nadirov) tapşırılsın ki, AMEA-nın Naxçıvan Bölməsi Əsasnaməsinin layihəsini bir ay müddətində hazırlasın.

5. AMEA-nın elmi bölmələrinə tapşırılsın ki, bir ay müddətində Naxçıvan Bölməsinə daxil olan elmi müəssisələrinin əsas elmi istiqamətləri, mövzuları və strukturu haqqında təklifləri AMEA Rəyasət Heyətinə təqdim etsinlər.

6. MİŞ-ə (Z.Nəcəfov) tapşırılsın ki, AMEA Naxçıvan Bölməsinin maliyyələşməsinə aid məsələləri həll etsin..

7. AMEA Rəyasət Heyətinin aparatı bu qərardan irəli gələn məsələlərin icrasını təmin etsin.

8. Bu qərar 2003-cü il yanvar ayının 1-dən qüvvəyə minir.

9. Qərarın icrasına nəzarət AMEA-nın birinci vitse-prezidenti akademik N.Quliyevə həvalə olunsun.

**Azərbaycan MEA-nın prezidenti** **M. Kərimov**

**Azərbaycan MEA-nın akademik-katibi** **T.Şahtaxtınski**